# MÜASİR PEŞƏ TƏHSİLİ MƏRKƏZİ YARADILIR

Əsas tərəfdaşları Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Koreya Respublikasının İqtisadi İnkişaf Əməkdaşlıq Fondu (IIƏF) olmaqla, 11 aprel 2014-cü il tarixində imzalanan Sazişə əsasən, Bakı şəhərində Peşə Tədris Mərkəzinin yaradılması nəzərdə tutulmuşdur.



Müqaviləyə əsasən, (layihə 15 dekabr 2017 və 15 iyun 2019-cu illəri əhatə edir) Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzinin bazasında Koreya təhsil standartları əsasında yaradılacaq Peşə Təhsili Mərkəzində – 2 emalatxana, dizel generator otağı, yarımstansiya, qazanxana, nasos stansiyası, xarici rabitə xətləri, kompressor otağı, yanacaq deposu inşa ediləcək, həmçinin də tədris korpusu, 2 yataqxana binası əsaslı təmir edilərək avadanlıqlarla təchiz ediləcəkdir. Eyni zamanda, müəllimlərin təlimi üçün dərsliklər hazırlanaraq onların maarifləndirilməsi işi həyata keçiriləcəkdir. Mərkəzin rəsmi təməlqoyma mərasimi bu ilin əvvəllərində keçirilmişdir. Mərasimdə Təhsil Nazirliyinin rəhbərliyi, Nazirlər Kabinetinin Beynəlxalq maliyyə təşkilatları ilə iş şöbəsinin müdiri, Koreyanın ölkəmizdəki səfiri, Koreyanın Biliklərin Transferi üzrə Qlobal İnstitutunun Prezidenti çıxış edərək, iki ölkə arasındakı əməkdaşlıqdan, təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsindən danışıb, yeni mərkəzin bazarın tələblərinə cavab verən ixtisaslı kadrların hazırlanmasında və işlək peşə təhsili modelinin qurulmasında əhəmiyyətli rol oynayacağına inandıqlarını bildiriblər.

**Layihənin inkişaf məqsədləri:**

*– sənayenin hərtərəfli inkişafı nöqteyi-nəzərindən Azərbaycanın iqtisadi dayanıqlığını gücləndirmək;*

*– Azərbaycan sənayesi üçün əhəmiyyətli olan müxtəlif sahələrdə əmək resurslarını çoxaltmaq və gücləndirmək;*

*– peşə təhsili üçün digər qurumlar tərəfindən müqayisə ediləcək model-peşə təhsil mərkəzini yaratmaq.*

Qeyd edək ki, layihəyə uyğun olaraq Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin bazasında – mexanika, elektronika, elektrik mühəndisliyi, sənayedə quraşdırma işləri, tikinti, informasiya texnologiyaları, avtomobil və avtomatlaşdırma istiqamətləri üzrə ən müasir maddi-texniki baza, Koreyanın tədris planı və bu ölkənin mütəxəssislərinin iştirakı ilə nümunəvi təhsil müəssisəsinin yaradılması nəzərdə tutulur.

Bugünədək layihə çərçivəsində bir çox işlər görülmüşdür. Cari hesabat dövründə təmir-tikinti işləri iş qrafikinə uyğun aparılmış, 1 emalatxana, idman zalı, yataqxana və 2-ci emalatxanada isə tikinti-təmir işlərinin böyük hissəsi tamamlanmışdır.

Mərkəzin əsaslı təmir işlərinin 1/3 hissəsi başa çatdırılmış, suvaq və hörgü işləri, su, elektrik, kanalizasiya, istilik xətlərinin quraşdırılması işləri davam etdirilir. Bununla yanaşı, mərkəzin avadanlıqlarla təchizatı, müəllimlərin təlimi və dərsliklərin hazırlanması işi 2018-ci ilin 4-cü rübündə nəzərdə tutulur.